**Musa Yaqub**

**Bahar**

Novruz qədəm basdı daşa-torpağa,
Sular cuşa gəldi, sel təzələndi.
Meşələr oyanıb qalxdı ayağa,
Yazın nəfəsində çöl təzələndi.

Mənim ilk baharım al günəş ilə,
Mənim ilk baharım od, atəş ilə
Torpaqdan göyərib, buluddan yağıb,
Nərgizlə açılıb, otlara çıxıb,
Bənöşə ətrinə bürünüb gəlib.
Dağlardan sellərlə sürünüb gəlib.
Qaranquş sərçəyə,
Qaz gölməçəyə,
Quşlar yuvalara bahar gətirdi.
İlk dəfə dünyanı görən körpəyə
Bahar yeddi rəngdə nübar gətirdi.
Elə döyündü ki, yerin ürəyi,
Qanından lalələr səpdi torpağa.
Elə tələsdi ki, bahar küləyi,
İlişdi budağa döndü yarpağa.

Qovdu yel atını belədən-belə,
Arı pətəyinə girişdi  bahar.
Sallandı dərəyə, dırmandı dağa,
Quzeydə soyuqdan büzüşdü bahar.
Bahar bir təlatüm, bahar bir axın...
Hansı ümidləsə göyərir, baxın,
Torpağa sərilmiş kəsik budaqlar.

Arılar köçdülər gül yanağına,
Xəzəllər köhnəldi, gül təzələndi.
Çox qalıb təqvimin son varağına,
Amma təbiətdə il təzələndi.

**Yaqub M. Bahar : şeir // Bu dünyanın qara daşı göyərməz. – Bakı : Azərnəşr, 1997. – S.36.**